# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №04 (7493) | 7 aprel 2021-ci il | Çərşənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|




## Yaralıların müalicəsi davam edir

**Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda sentyabrın 27-sindən başlanan Vətən müharibəsində Şirvan şəhərinin qəhrəman oğulları da şücaət göstərmiş, bir qismi şəhidlik məqamına yüksəlmiş, bəziləri qazi olmuşlar. Onların bir çoxu müalicə olunaraq sağlamlıqlarına qovuşublar. Yaralıların bir neçəsinin müalicəsi Şirvan Mərkəzi Xəstəxanasında davam etdirilir.**

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Şirvan Mərkəzi Xəstəxanasında müalicələri davam edən yaralılara baş çəkib. İcra Hakimiyyətinin başçısı yaralılar - Nicat Həsənov, Anar Həsənov, Hüseyn Əliyev, Kamran Avşarov, Xalid İsgəndərov Fuad Dadaşovla görüşüb, Vətənimizin bütövlüyü və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda göstərdikləri şücaətə görə onlara təşəkkürünü bildirib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün ərzində 30 illik işğala son qoyulması və Tarixi Qələbə münasibətilə bir daha onları təbrik edib, şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə şəfa diləyib. Qeyd edib ki, canları, qanları bahasına vuruşan, bizə bu qüruru və sevinci yaşadan Şanlı Ordumuzun bütün əsgər və zabitləri dövlət başçısı tərəfindən yüksək qiymətləndirilib, onların böyük əksəriyyəti orden və medallarla təltif edilib, sosial problemlərinin həlli istiqamətində qısa müddətdə bir çox sərəncamlar imzalanıb. Şəhid ailələrinə və qazilərə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı, Heydər Əliyev Fondunun və Yaşat Fondunun fəaliyyəti bunun bariz nümunəsidir.

Şirvan Şəhər İcra Hakimiyyəti də öz növbəsində Vətən müharibəsi şəhidlərinin ailələri və qazilərlə görüşlərə xüsusi önəm verir, onların qaldırdıqları məsələlərə, müraciətlərə həssaslıqla yanaşır, maddi və mənəvi dəstək göstərir.

Yaralılar ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident çox hörmətli Mehriban xanım Əliyevaya şəhid ailərinə və qazilərə göstərdikləri diqqət və qayğıya görə minnətdarlıqlarını bidirib və tibbi xidmətdən razılıqlarını ifadə ediblər. Onları narahat edən bəzi sosial problemlərin həlli ilə bağlı şəhər rəhbərliyinin köməklik göstərməsi xahiş olunub. İlqar Abbasov qeyd olunan problemlərin aidiyyəti üzrə həlli istiqamətində köməklik göstəriləcəyini bildirib və onların tezliklə sağlamlıqlarına qovuşmasını arzulayıb.

İlqar Abbasov Yerli icra hakimiyyətləri haqqında Əsasnamədə edilən yeni dəyişikliyə əsasən, bütün icra hakimyyətlərində “Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi”nin yaradılmasının, şöbə müdirinin və baş məsləhətçinin də qazilərin arasından seçilməsinin onlara göstərilən həssas münasibətin təzahürü olduğunu vurğulayıb. Qeyd edib ki,

## ŞƏHİD AİLƏSİ İLƏ GÖRÜŞ




**Şanlı Azərbaycan ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı sürətli əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbə şəhidlərimizin qanı ilə yazıldı.44 günlük Vətən müharibəsinin qəhrəmanları həmişə hörmətlə yad ediləcək.İstər şəhid ailələri, istərsə də qazilər Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının xüsusi diqqət mərkəzindədir.**

01.04.2021-ci il tarixində Şirvan şəhər İcra Hakimiyyəti və YAP Şirvan şəhər təşkilatı nümayəndələrin birgə təşəbbüsü və təşkilatçılığı ilə şəhid Şıxəliyev Elvin Sarvan oğlunun ailəsi ziyarət olundu, onlara müəyyən olunmuş yardımlar göstərildi.

Şirvanda da bütün şəhid ailələrinə xüsusi diqqət və həssaslıqla yanaşılır. E.Şıxəliyevin valideyn və yaxınları ilə şəhidin keçdiyi həyat yolu barəsində söhbət aparıldı. Cənab Prezident İlham Əliyevin, Birinci vitse- prezident çox hörmətli Mehriban Əliyevanın hər zaman şəhid ailələrinin yanında olduğu şəhidin valideyn və yaxınlarının diqqətinə çatdırıldı. Şəhidin yaxınlarına Allahdan səbr diləndi.

Şəhidin valideyni də öz növbəsində ölkə başçısına, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü çatdırdı. Şirvan şəhər İcra Hakimiyyəti, YAP Şirvan şəhər təşkilatının qayğısına görə minnətdarlığını bildirdi.

## 31 Mart-Azərbaycanlıların soyqırımı günündə günahsız insanların xatirəsi yad edildi

**Xalqımızın Ümummili lideri Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli fərmanı ilə hər il 31 mart - Azərbaycanlıların Soyqırımı Günü geniş qeyd edilir. Bu günün qeyd edilməsində məqsəd, soyqırıma məruz qalmış günahsız insanların xatirəsini yad etmək, uzun illər obyektiv qiymətini almamış tariximizin təhrif olunmuş hadisələrinə nəzər salıb, nəticələr çıxarmaq və gələcək üçün vəzifələr müəyyən etməkdən ibarətdir.**



1917-ci il oktyabr çevrilişindən sonra azərbaycanlılara qarşı soyqırım planını reallaşdırmağa başlayan ermənilər “əks-inqilabçılarla mübarizə” şüarı altında 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, habelə Bakı quberniyası ərazisində, Şamaxı, Quba və digər şəhər və qəzalarda on minlərlə dinc sakini məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirib, yaşayış məntəqələrini dağıdıb, mədəniyyət abidələrini, məscid və qəbiristanlıqları yerlə-yeksan edib. Qarabağ, Zəngəzur, Naxçıvan, Salyan, İrəvan və digər bölgələrdə də kütləvi qətllər, talanlar həyata keçirib, əhaliyə divan tutublar.1918-ci ilin mart-aprel aylarında ermənilər ümumilikdə 50 min azərbaycanlını, 30 mindən çox soydaşımızı xüsusi amansızlıqla qətlə yetirib, 10 minlərlə insanı doğma yurdlarından qovub, evlərini yandırıb, milli-mədəni abidlərimizi məhv ediblər. Ermənilər tərəfindən Şamaxı qəzasının 58 kəndi, Quba qəzasının 122 kəndi, İrəvan quberniyasının 24 kəndi, Qars vilayətinin 92 kəndi yerlə-yeksan edilib. İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfər olduğu halda 1922-ci ildə 70 min nəfərə endirilmişdir.

Ermənilərin törətdikləri soyqırım cinayətlərinin bəzi xarici dövlətlər tərəfindən dəstəklənməsi, kütləvi qətillərin qarşısının alınmaması, təcavüzkar ermənilərin “Böyük Ermənistan” yaratmaq xülyasını daha da gücləndirmişdir. 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi, 1920-ci illərdə sovet hökuməti tərəfindən Zəngəzurun ermənilərə verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası ermənilərin daha da azğınlaşmasına və 1988-ci ildə daha böyük iddia ilə azərbaycanlılara qarşı təcavüzə başlamasına gətirib çıxarmışdı.

1988-1990-cı illərdə də ermənilər 200 min nəfərdən artıq azərbaycanlını öz tarixi torpaqları olan indiki Ermənistan ərazisindən insanlığa yaraşmayan vəhşiliklərlə qovub çıxardılar. Sumqayıtda, Bakıda qırğınlar törətdilər. 1990-cı il yanvarın 20-də Bakıda yüzlərlə günahsız, dinc sakinləri qətlə yetirən silahlı qoşun birləşmələrinin tərkibi də əsasən ermənilərdən ibarət idi. Ermənilər 1992-ci ilin fevralın 25-dən 26-a keçən gecə 366-cı rus alayının köməyi ilə Xocalıda misli görünməmiş qəddarlıqla yeni soyqırım törətdilər. Xocalı soyqırımında daha 613 nəfər azərbaycanlı dinc sakin vəhşicəsinə qətlə yetirildi.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlara hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə siyasi qiymət vermək üçün cəhd edilmişdir. 1918-ci ilin mart ayında ermənilər tərəfindən xüsusi qəddarlıqla həyata keçirilmiş azərbaycanlıların soyqırımı faciəsinin təhlili məqsədilə fövqəladə istintaq komissiyası yaradılmış, soyqırımın miqyasını və dəhşətlərini əks etdirən kifayət qədər faktlar, materiallar toplanmışdır. 1919-cu və 1920-ci illərdə mart ayının 31-i ölkəmizdə ümummilli matəm günü kimi qeyd edilmişdir. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatdırılmasına imkan verməmişdir. Ermənilərin 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımları Qubada və digər ərazilərdə aşkar edilən kütləvi məzarlıqlar bir daha təsdiq edir. Həmin materialların dünya ictimaiyyətinə çatdırılması istiqamətində dövlət səviyyəsində tədbirlər bu gün də davam etdirilir.

Ulu öndərimiz Heydər Əliyevin siyasi dəsti-xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın müvafiq qurumları ermənilərin məkirli niyyətini, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini, ermənilərin ərazi iddialarını, azərbaycanlılara qarşı törətdikləri soyqırımların miqyasını bütün dünya ictimaiyyətinə çatdırmışdır. Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımları əks etdirən tarixi faktlarla zəngin rəsmi sənədlər, fotoşəkillər, kitablar, audio-video materiallar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, çox hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Heydər Əliyev Fondu tərəfindən müxtəlif dillərə tərcümə edilərək xaricdə yaşayan soydaşlarımız, diaspor təşkilatlarımız, səfirliklərimiz, vasitəsi ilə dünya ictimaiyyətinə çatdırılır. Azərbaycan icmaları, Azərbaycan və Türk diasporları bu istiqamətdə birgə fəaliyyət göstərirlər. Nəhayət görülən işlər, ardıcıl həyata keçirilən tədbirlər öz bəhrəsini verdi. Ötən ilin sentyabr ayının 27-də ermənilərin növbəti təxribatlarına və təcavüzünə cavab verən Müzəffər Ordumuz Qalib Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində hərbi əməliyyatlar nəticəsində 30 ilə yaxın davam edən erməni işğalına son qoydu. Ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Xalqımızın əldə etdiyi bu Tarixi Qələbə şəhidlərimizin ruhunu şad etdi. Dövlət başçımızın dediyi kimi, biz şəhidlərimizin qisasını düşməndən döyüş meydanında aldıq. Bundan sonra bütün xain qüvvələr, bütün düşmənlərimiz də biləcəklər ki, artıq Azərbaycan özünə qarşı istənilən aqressiyanı dərhal və qətiyyətlə dəf etmək iqtidarında olan qüdrətli bir dövlətdir. Allah soyqırım qurbanlarına, bütün şəhidlərimizə rəhmət eləsin.



# Ulu Öndər Heydər Əliyevin siyasi irsi müstəqil dövlətçiliyimizin əsasıdır

**Ümummilli Lider, Ulu Öndər Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası keçmiş Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdən birini tuturdu. Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi ilə Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Xalq ilk gündən Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı. O, respublikaya rəhbərliyi dövründə dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və onları həyata keçirtdi. Ulu Öndərin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq sadə vətəndaşlar tərəfindən ona böyük rəğbət qazandırdı.**

1969-1982-ci illəri əhatə edən həmin dövr Azərbaycanının tarixinə ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan keçmiş sovetlər birliyində qabaqcıl mövqelərə çıxdı. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı.

Heydər Əliyevin 1982-1987-ci illərdə Moskvada SSRİ rəhbərliyində Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək post tutması bir daha sübut edir ki, heç bir şovinist qüvvə onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısını almağa qadir deyildir. Tənəzzülə başlamış nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük nailiyyətlərə nail olan Heydər Əliyev az vaxt içərisində bütün SSRİ-də böyük nüfuz qazandı. Dünya siyasətçiləri bu gün də etiraf edirlər ki, həmin dövrdə Siyasi Büroda Sovet dövlətini idarə etməyə və onu tənəzzüldən çıxarmağa qadir olan yeganə dövlət xadimi Heydər Əliyev idi. Odur ki, səriştəsiz və bacarıqsız Kreml rəhbərləri, xüsusilə M.Qorbaçov Heydər Əliyevi özünə ciddi rəqib hesab edirdi. Belə bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev sovet rəhbərliyində olarkən doğma vətəni olan Azərbaycanı həmişə diqqət mərkəzində saxlayır, onun inkişafına hər cür qayğı göstərirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi Birinci dövrlə İkinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəri kimi yaddaşlarda yaşayır. Xüsusilə, tariximizin 1990-1993-cü illəri xalqın yaddaşında ən ağır illər kimi qalıb. Həmin vaxt hakimiyyətdə olan xəyanətkar rəhbərlər, sonra isə onları əvəz edən, heç bir idarəçilik bacarığı olmayan Xalq Cəbhəsi-Müsavat cütlüyü Azərbaycanı dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdular.

Bu zaman xalqın yeganə ümid çırağı Heydər Əliyev zəkası idi. 1990-cı il yanvarın 21-də "20 Yanvar" faciəsinin ertəsi günü həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev 1990-cı il iyulun 20-də Azərbaycana döndü. Çox təəssüf ki, Bakıda tariximizin ən rüsvayçı faktlarından biri baş verdi. Həmin vaxt hakimiyyətdə olanlar xalqın xilaskar oğluna vaxtilə onun qurub-yaratdığı Bakı şəhərində qalmaq, xalqı ilə bir yerdə olmaq, ona yol göstərmək imkanı verilmədilər.

Ulu Öndər iki gün sonra - iyulun 22-də doğma Naxçıvana getdi və orada bütün Azərbaycanın qurtuluş mübarizəsinə başladı. Milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması, nəhayət, amansız hərbi-iqtisadi blokada şəraitində Naxçıvanın düşməndən qorunub saxlanması Ulu Öndərin adı ilə bağlıdır.

17 noyabr 1991-ci ildə Müstəqillik aktını imzalayan Azərbaycanda isə həmin vaxt hərc-mərclik hökm sürürdü. Bakıda hakimiyyətdə olanlar müstəqil dövlətin dayaqlarını möhkəmləndirəcək heç bir addım atmırdı. Ölkə fəlakət həddinə çatmışdı.

Ölkənin belə ağlr vəziyyətində 16 oktyabr 1992-ci il tarixdə bir qrup ziyalı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevə müraciət edərək, Yeni Azərbaycan Partiyasının (YAP) yaradılması ideyasına münasibət bildirməyi və bu partiyaya rəhbərlik etməyi xahiş etdilər. Bu o zaman idi ki, Azərbaycan öz müstəqilliyini bir il idi ki, əldə etmişdi. Amma ölkədə vəziyyət elə bir həddə çatmışdı ki, müstəqillik hər an itirilə bilərdi. Tarixə məşhur "91-lərin müraciəti" kimi düşmüş həmin müraciəti imzalayan ziyalılar bütün bu təhlükələri görür və getdikcə vəziyyətin daha da ağırlaşacağını, illərlə həsrətində olduğumuz müstəqilliyimizin yenidən itirilməsi təhlükəsini dərk edirdilər. Məhz buna görə də 91-lər Azərbaycan xalqının güvəndiyi, arxalandığı, öz vətənini, millətini sonsuz məhəbbətlə sevən xilaskara - Heydər Əliyevə müraciət etdilər. Bu müraciəti 91 nəfər imzalasa da, bütün xalqın istəyini və arzusunu əks etdirirdi. Heydər Əliyevin ətrafında yaradılmış Yeni Azərbaycan Partiyası qısa zamanda Ulu Öndərin təcrübəsi və siyasi peşəkarlığı sayəsində ölkədə ən böyük və effektiv siyasi qüvvəyə çevrildi.

Xalqın təkidi ilə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ərəfəsində 1993-cü ilin iyununda Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyənlər ölkəni milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Belə bir təhlükə qarşısında qalan Azərbaycan xalqının yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız yeganə düzgün seçimi edərək Heydər Əliyevi hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları ürəyində qaldı.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik dövlət xadimi vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planını puça çıxartdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Azərbaycan dövlətçiliyi Heydər Əliyevin qətiyyəti sayəsində 1994-cü ilin oktyabr, 1995-ci ilin mart sınaqlarından da uğurla çıxdı. Ulu öndər öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə keçirib müstəqilliyimizi əbədi və dönməz etdi. Dövlətçiliyin əsasları qoyuldu. 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Konstitusiya qəbul edildi.

Möhkəm təməllər üzərində qurulan Azərbaycan 2003-cü ildən sonra özünün inkişaf mərhələsini möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi altında davam etdirməyə başladı. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz 17 il ərzində müxtəlif tarixi uğurlara imza atdı. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan qalib və mübariz dövlət kimi dünyaya tanınır.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə1993-cü ilin 15 iyununda başlayan Milli Qurtuluşumuz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan xalqını 10 noyabr 2020-ci il Zəfərinə qovuşdurdu.

**Barxudar Barxudarov,**
**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin direktoru**

# Şirvan şəhərində Ağsaqqallar Şurasının hesabat-seçki konfransı keçirildi

**Şirvan şəhər Ağsaqqallar Şurasının hesabat-seçki konfransı 03 mart 2021-ci il tarixdə YAP Şəhər Təşkilatının konfrans zalında keçirildi. Konfransdan öncə Respublika Ağsaqqallar Şurasının sədr müavini, tibb elmləri doktoru, professor, akademik, Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov "Şəhidlər Xiyabanı"nı və Ulu öndər Heydər Əliyevin büstünü ziyarət edərək önünə gül dəstələri qoyub, əziz xatirələrini dərin ehtiramla yad etdilər.**



Şirvan şəhər Ağsaqqallar Şurasının hesabat-seçki konfransını Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov açdı. Başçı konfrans iştirakçılarını salamladı. Konfransın işində iştirak etdiyinə görə Milli Elmlər Akademiyasının akademiki, Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanova təşəkkürünü bildirdi.

Konfransda Şirvan şəhər Ağsaqqallar Şurasının sədri Fəxrəddin Rəhimov hesabat-məruzəsi ilə çıxış etdi. Natiq Şuranın hesabat dövründə gördüyü işlərdən, əldə edilən nailiyyətlərdən danışdı. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevanın ağsaqqallara, ağbirçəklərə göstərdiyi diqqət və qayğını, onların bütün ağsaqqallara örnək, nümunə olan fəaliyyətlərini qeyd etdi.

Ağsaqqallara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə etdi.

Konfransda çıxış edən Şəhər Veteranlar Şurasının sədri Vaqif Qayıbov, Qadınlar Şurasının üzvü Səadət Quliyeva, təqaüdçü, şair-publisist Yaqub Salmanov Ağsaqqallar Şurasının hesabat dövründə gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, şəhərdə aparılan abadlıq, quruculuq işlərinin qorunması, karonavirus infeksiyasına qarşı mübarizə, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və digər güzəşt hüquqlu ailələrlə aparılan işdən, ölkə Prezidentinin və şəhər rəhbərliyinin bu kateqoriyadan olan insanlara göstərdikləri diqqət və qayğıdan danışdılar. Ağsaqqallar Şurasının fəaliyyətini qənaətbəxş hesab etdilər. Konfransda çıxış edən akademik, Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov ölkəmizdə ağsaqqal hərakatının tarixindən, Ulu öndər Heydər Əliyevin dövlət başçısı olmaqla yanaşı, nüfuzlu ağsaqqal kimi beynəlxalq səviyyəli geniş fəaliyyətindən danışdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində erməni işğalçılarını tarixi torpaqlarımızdan öncə hərbi, sonra isə sülh yolu ilə çıxarılmasının əhəmiyyətini qeyd etdi. Anti-Azərbaycan mətbu orqanlarında ölkəmizə qara yaxmağa çalışanlara qarşı ağsaqqalların fəal münasibət bildirmələrini, əhali, xüsusilə gənclər arasında geniş maarifləndirmə işinin aparılmasının zəruriliyini bildirdi. Ağsaqqalların tövsiyə və təşəbbüsləri ilə şəhərdə aparılan geniş miqyaslı abadlıq-quruculuq işlərindən razı qaldığını bildirdi. Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhərdə Vətən müharibəsi şəhidlərinin dəfn mərasimlərinin böyük izdihamla təşkil edilməsindən, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və digər aztəminatlı ailələrlə aparılan işlərdən, onlara göstərilən diqqət və qayğıdan, Şəhidlər Xiyabanında görülən abadlıq-quruculuq işlərindən, Vətən müharibəsinin şəhidləri üçün qəbirüstü abidələrin ucaldılmasından danışdı. Yaralı qazilərə Şirvan şəhərində yerləşən xəstəxanalarda göstərilən tibbi xidmətdən, karonavirus infeksiyasına qarşı aparılan mübarizədən, əhalinin maarifləndirilməsi, vaksinasiya olunması sahəsində görülən işlərdən danışdı. Ağsaqqalları görülən işlərdə daha fəal iştirak etməyə çağırdı. Konfransda təşkilati məsələyə baxılıb. Fəxrəddin Rəhimov yenidən Şirvan şəhər Ağsaqqallar Şurasının sədri seçilib.

Konfransda Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan cənab İlham Əliyevə müraciət qəbul edildi.

# Reallığa çevrilmiş arzular

**Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Ordumuz düşmən üzərində qələbə qazandıqdan sonra cənab Prezidentin işğaldan azad olmuş torpaqlara ilk səfəri 16 noyabr 2020-ci il tarixdə Fizuli və Cəbrayıl rayonlarına olmuşdu. Bundan sonra cənab Prezident 23 noyabrda Ağdam rayonuna, 23 dekabrda Qubadlı, Zəngilana, 15 yanvarda birinci dəfə Şuşa şəhərinə səfər etmişdir. 14 fevral tarixində Fizuli, Zəngilan və Laçın rayonlarına, 15 mart tarixində Fizuli, Xocavənd rayonlarında və 16 martda Şuşa şəhərinində olmuşdur.**

Cənab Prezident bütün bu səfərlərində işğal dövründə erməni vandalları tərəfindən törədilmiş vəhşiliklər, bütün yaşayış məntəqələrinin yerlə yeksan olunması, Azərbaycanın zəngin mədəniyyətinə vurulan zərbələrdən, mənfur düşmənin bu tarixi zəngin irsimizin silinməsinə yönəlmiş əməlləri barədə öz fikirlərini bildirmişdir. Cənab Prezident bütün bu həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasının vacibliyini qeyd etmişdir: "Beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər həqiqətləri. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər". Bu səfərlər zamanı cənab Prezident tərəfindən Azərbaycanın o torpaqlara qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtdığı mesajı verilmişdir.

Cənab Prezident Şuşa səfəri zamanı bəzi hərbi əməliyyatlara aydınlıq gətirərək, Azərbaycan Ordusunun düşmən üzərində qələbəsinin əsas səbəbləri barədə fikirlərini söyləyərkən qələbənin əsas səbəblərindən biri uğurlu hərbi strategiyanın olduğunu bildirmişdir. Bu mənada Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olmuşdur. Şuşa əməliyyatının uğurlu keçməsi üçün məhz Hadrutu azad etməyin vacib olduğu Ali Baş Komandan tərəfindən şərh edilmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin martın 16-da, ilaxır çərşənbədə Qarabağın ürəyi olan Şuşamızı növbəti dəfə ziyarət etməsi bir daha milli qürurumuzun, tarixi ədalətin bərpasının dünyaya təqdimatı oldu. Möhtərəm Prezidentimizin Şuşanın tez bir zamanda bərpa olunaraq əvvəlkindən də diqqətçəkən görkəmin alması istiqamətində verdiyi tapşırıqlar uğurla icra edilir. Dövlətimizin başçısı hər bir tapşırığın icrası ilə yaxından tanış olmaq üçün bu ərazilərimizə səfər edir. Cənab İlham Əliyev Şuşa şəhərində olarkən böyük şairimiz Vaqifin məqbərəsində tezliklə bərpa işlərinin başlanacağını, məqbərənin əvvəlki görkəminin bərpa ediləcəyini, layihəni Heydər Əliyev Fondunun öz vəsaiti hesabına, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə icra ediləcəyini bildirib.

Möhtərəm Prezidentimiz İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımıza davamlı səfərləri zamanı mənfur düşmənə və 30 ilə yaxın müddətdə ona havadarlıq edənlərə bu mesajı ünvanlayır və deyir ki, torpaqlarımız öz tarixi sahibindədir. 30 ilə yaxın dövrdə Novruz bayramı təbriklərinin əsas mahiyyətini təşkil edən "Növbəti bayramı işğaldan azad edilmiş torpaqlarımızda qeyd edək, tonqallar qalayaq" kimi arzularımız nəhayət reallığa çevrildi, bu günlər qalib ölkənin qalib vətəndaşı kimi milli bayramımız olan Novruzu, baharın gəlişini ilk dəfə xoş ovqatla, sevinc hissi ilə qeyd edirik. Məhz əziz bayram ərəfəsində bu xoşbəxt anları bizə yaşatdıqlarına, vaxtilə itirilmiş milli qürurumuzu özümüzə qaytardıqlarına görə harada yaşamasından, siyasi baxışlarından, əqidəsindən asılı olmayaraq hər bir azərbaycanlı möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna sonsuz minnətdardır.

**Fəxrəddin RƏHİMOV,**
**Şəhər Ağsaqallar Şurasının sədri**

İŞIQ
İctimai-siyasi qəzet





# Şəhadətin Emil ünvanı

**«Şəhidlik nəyinsə sonu deyil, yalnız başlanğıcıdır».**
***İndira Qandi***

**Şəhidlər haqqında yazmaq hər bir qələm sahibindən xüsusi məsuliyyət və cavabdehlik tələb edir. 44 günlük Vətən Müharibəsi müddətində onun gedişini ardıcıl olaraq izləməyim, tarixən azərbaycanlıların iştirak etdiyi müharibələr tarixini mütaliə etməyim və nəhayt İslam hərb tarixinə olan marağım vasitəsi ilə indiyə qədər əldə etmiş olduğum biliklər məndə, belə demək mümkünsə, gözümüz qabağında böyüyüb boya-başa çatmış Emil Tərlan oğlu Hümbətov haqqında yazmağa mənəvi ehtiyac və cəsarət yaratdı.**



Böyük və nüfuzlu bir nəslin nümayəndəsi olaraq Emil Hümbətov dünyaya 1992-ci ilin oktyabrın 30-da Şirvanda, Tərlan və Sevinc Hümbətovların ailəsində göz açıb. Bir çox yaşıdları kimi uşaqlığının bəlkə də daha çox hissəsini nənə və babasının yurdunda keçirən Emil tez-tez bu müqəddəs ocaqda çoxlu sayda olan digər nəvələr kimi həyatının heç vaxt yaddan çıxmayacaq anlarını yaşamaqda idi. Ana Kürün sahilində yerləşən, qeyri-adi sahmanı, düzəni olan bu ev xoş məramlı insanların hamısının üzünə açıq idi. Nurəddin baba ilə Bağdagül nənənin nurlu, səmimi simaları, heç kimə azacıq fərq qoymadan belə əsl azərbaycanlı qonaqpərvərliyi göstərmələri bu ocağı həddən artıq qonaqlı-qaralı edirdi. Bu ocağa yaxşı gələcəyə olan bütün ümidlərini itirmiş halda gələn adam kimi tərk edəndə mütləq bir ümman sevinc və xoş arzularla, maddi sıxıntısı, ehtiyacı olan insanlar isə Nurəddin baba ilə Bağdagül nənənin səxavət payı ilə oranı tərk edərdilər. Nəvələrə inanılmaz bir dərəcədə diqqət var idi. Onların sayı artdıqca təbii ki, bu iki fədakar insanın nənə-baba qayğıları da artırdı. Amma artan qayğılar heç bir halda onların bir yerə toplaşanda səsləri aləmə yayılan bu nəvələrinə olan sevgi və məhəbbətini zərrə qədər də azaltmırdı və qəribə də olsa əksinə daha da xoşbəxt görünürdülər. Nurəddin baba elə bir gün olmurdu ki, hansısa nəvəsinə baş çəkməsin. Tez-tez Bakıya gedib-gələn babanın bir də də onların yanına əliboş qayıdan görən olmamışdı. Onların hər biri diqqət mərkəzində idi və təbii ki, gələcək qəhrəman da həmçinin bu diqqətdən kənar qalmamışdı.

Emil dünyaya atası Tərlanla anası Sevincin ilki kimi 1-ci Qarabağ müharibəsinin ən qızğın vaxtında gəlmişdi. Artıq torpaqalrımızın bir hissəsi itirilmişdi və hələ də irəlidə itirəcəyimiz bir neçə başqa rayonlarımız da var idi. Azərbaycan dövlətçiliyi və xalqı öz tarixinin ən çətin dövrlərindən birini yaşayırdı. Görünür elə gənc Emilin taleyində də bu ədalətsiz müharibə və qonşu ölkənin misli görünməmiş namərdliyi iz buraxmamış deyildi. O da bu müharibənin bir çox başqa iştirakçıları kimi ağlı kəsəndən «nankor qonşu», «mənfur erməni işğalçıları», «İşğal olunmuş torpaqlarımız» ifadələrini təkrar-təkrar eşitməkdə idi. Məncə onun və digər şəhidlərimizin qəhrəmanlığının qaynaqlandığı səbəblərdən biri də elə bu məlumatların yaratdığı düşüncələr idi. Azərbaycan Ordusunun düşmən üzərində əldə etdiyi möhtəşəm qələbədə ardıcıl aparılan hərbi-vətənpərvərlik tərbiyəsi və təbliğatı da öz vacib rolunu oynamış oldu.

Emil 2008-ci ildə 9 saylı orta məktəbin 10-cu sinfini bitirir. Sonra təhsilini Şirvan Peşə Liseyində davam etdirib. 2010-cu ildə onu uğurla başa çatdırır. Həyat öz axarı ilə davam etməkdə idi. İnsan ömrünün bu coşqun gənclik mərhələsi əksər gənclərdə olduğu kimi Emilin də gələcəyə olan çoxlu sayda arzu və ümidləri ilə dolu idi.

2010-cu ildə Emil Hümbətov Şirvan şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılır və Dəşkəsən rayonundakı «N» saylı hərbi hissəyə göndərilir. Əfsanəvi qəhrəman general-mayor Polad Həşimovun komandanlığı altında keçən hərbi xidmət dövrü əsl kişilik məktəbi olur. 2012-ci ildə hərbi xidmətdən tərxis olunan Emil Şirvana qayıdır və qısa müddətdən sonra əmək fəaliyyətinə başlayır.

Emil ailə üzvlərinə, atası Tərlana, anası Sevinc xanıma, bacısı Aytaca və nəhayət onun qızı Azraya bütün varlığı ilə bağlı olsa da 2016-cı ildə qardaş Türkiyəyə yollanıb 4 il orada özəl sektorda çalışır və bu müddətdə öz işgüzarlığı və işinə vicdanlı münasibəti ilə yerli iş adamlarının rəğbətini qazanır. 2020-ci ildə yenidən Azərbaycana-Şirvana, darıxdığı və çox sevdiyi ailəsinin yanına qayıdan Emil müsabiqədən uğurla keçib yeni iş yerinə təyinat alır.

Emil Azərbaycanda olduğu müddətdə 2020-ci ilin iyul ayında «Tovuz döyüşləri» başlayır. Qəflətən başlayan bu döyüşlərdə qəhrəmanlıqla həlak olan keçmiş komandiri general-mayor Polad Həşimovun şəhid olması Emili dərindən sarsıdır. «Biz hamımız Mübarizik» şüarı altında vətənpərvərlik hərəkatına həvəslə qoşulan Emil, «Bizim general -Polad Həşimov» şüarı altında davam edən digər vətənpərvərlik aksiyasında da fəallar sırasında olur və elə həmin günlərdə də könüllü olaraq vətəni qorumağa hazır olması haqqında müraciətini Hərbi Komissarlığa təqdim edir.

21 sentyabr, 2020-ci ildə Hərbi Komissarlıqdan gələn çağırış əsasında tərəddüd etmədən vətənin müdafiəsi məqsədi ilə təşkil olunan hərbi təlimlərə yollanır. 6 günlük təlimlərin ardından Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarının başlanması ilə əlaqədar hərbi vəziyyət elan olunur. Müharibənin ilk günündən döyüşlərə atılan Emil ön xətdə vətəni canı-qanı bahasına qorumağı qət edir. Vətən uğrunda canını belə əsirgəməyən Emil müharibənin 15-ci günündə, 11 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən ağır döyüşlərdə qəhrəmanlıqla şəhid olur. Müqəddəs şəhidlik zirvəsinə ucalan Emil Tərlan oğlu Hümbətov 12 oktyabr 2020-ci ildə Şirvan şəhər Şəhidlər xiyabanında dəfn olunub.

O Vətən Müharibəsində göstərdiyi qəhrəmanlığa və rəşadətə görə «Vətən uğrunda», «Füzulinin azad olunmasına görə» medalları ilə təltif olunmuşdur. Mən onda daim müşahidə etdiyim və indiyə qədər heç kimlə bölüşmədiyim bir ifadəni oxucuların diqqətinə çatdırmağı özümə borc bilirəm.

Həmişə Emilin çöhrəsində tez-tez qaygılı olduğunu göstərən ifadəni asanlıqla görə bilirdim. Yaraşıqlı qara gözləri davamlı olaraq uzağa heç kimə məlum olayan üfiqlərə tuşlanır, bu anda o nəyi isə axtarırmış, gözləyirmiş kimi ətrafda olan hər şeyi qısa müddətə yaddan çıxarırdı. Azərbaycanın digər şəhidləri haqqında yazılmış məqalə və xatirələri oxuyanda onların hamısına xas olan əsas bir xüsusiyyəti əminliklə yəqin edirdim. Elə bilirdim ki, başqa heç kimə məlum olmayan bir şeyi kəşf etmişəm. Sonralar şəhidlik zirvəsinə yüksələcək bu insanlar daim nəyinsə axtarışındadırlar və axtardıqlarını bu dünyada tapmağa çətinlik çəkirlər. Sanki yaradanın dərgahında gözləndiklərini hiss edib ora əliboş getməkdən narahatlıq keçirir, bu müqəddəs məqama yetişmək üçün vətən naminə şəhid olmağı yeganə yol sayırlar.

Hələ də Şəhidlər Xiyabanına istiqamət götürən insan izdihamın arası kəsilmir. Ərazisi elə də böyük olmayan bu yerdə insanın düşüncəsinə qəribə hissələr hakim kəsilir. Emilin və digər şəhidlərimizin əsgəri sıraya bənzər düzülmüş məzarları qarşısında dayanarkən keçirdiyim hissləri tam ifadə etməkdə çətinlik çəkirəm. Sağdan-soldan ziyarətçiyə tərəf boylanan bu gənc, bir-birindən gözəl simaların qarşısında ruhun ən dərin qatlarına nüfuz edən bir hissin təsiri altında vücudum bir anlığa sarsılır, qeyri-ixtiyari yaranan göz yaşları isə sanki onu ovutmağa tələsir. Vətənin ərazi bütövlüyünün bərpası, bütün azərbaycanlıların firavan gələcəyi üçün cavan canlarından keçmiş bu gənclərin qarşısında baş əyməyə yox, diz çökməyə də hazır olduğumu kiməsə pıçıldamaq istəyirəm. Onların baxışlarından heç bir nisgil, yaşayanlara həsəd hissi sezilmir, əksinə bu baxışlar «biz şəhidliyimiznən qürur duyuruq, necə gözəl məqama sahib olduğumuzu sizə çatdırmaq imkanında olmadığımız üçün isə təəssüflənirik» deyə bizə hələ bir təskinlik də bəxş etmək istəyirlər. Hündür boylu, vüqarlı qaməti olan Emilin əynindəki hərbi forma onun nurlu çöhrəsinə izaholunmaz bir gözəllik, harmoniya əlavə edir. Sanki bu cavan ömrünü elə bizə bu şəkildən baxmaq amalı ilə yaşamışdı. Bu müqəddəs məkana hər dəfə ayaq basanda, bu cavan şəhid balaların borcundan heç vaxt çıxa bilməyəcəyini düşündükcə hər bir azərbaycanlı narahat dəqiqələr yaşayır. Yeganə edə biləcəyimiz bir şey varsa o da onları heç vaxt yaddan çıxarmamaq, hələ yaşaya biləcəyimiz bu günlər və gələcək üçün onlara daim minnətdar ola bilməyimizdir.

Və nəhayət nə gözəl ki, 10 noyabır 2020-ci ildə II Qarabağ Müharibəsində şəhidlərimizin, qazilərimizin canı, qanı hesabına qazanılan qələbə nəticəsində Emil və minlərlə digər qəhrəman Azərbaycan oğullarının qanı yerdə qalmadı.

Allahdan bütün şəhidlərimizə rəhmət, ailələrinə səbr, qazilərimizə şəfa diləyirik. Əyninə əsgər paltarı geymiş oğullar, yaradan sizləri qorusun!

**Valeh XƏLİLOV**

**Elnur Qalib oğlu Qarayev Vətən müharibəsində həlak olan şəhidlərimizdən biridir. O 13 noyabr 1996-cı ildə Şirvan şəhər Gülbala Şıxbala oğlu küçəsi döngə 1, 43 nömrəli evdə qulluqçu ailəsində anadan olmuşdur. S.Hüseynov adına 1 nömrəli məktəbdə təhsil aldıqdan sonra hərbi xidmətə yola düşür. 2016-2017-ci illər**



# QƏLƏBƏNİ GÖRMƏK ONA QİSMƏT OLMADI

**əsgərlik həyatı onun üçün heç də asan olmayıb. Cəbhə bölgəsində atəşkəs elan olunmasına baxmayaraq dəfələrlə erməni təxribatlarının qarşısının alınmasında fədakarlıq göstərib. Aprel döyüşlərində iştirak edərək döyüş yoldaşları ilə birlikdə düşmənə sarsıdıcı zərbələr vuraraq komandanlığın təşəkkür və fəxri fərmanlarını almışdır.**

O, hərbi xidmətdən qayıtdıqdan sonra Azərbaycan Nəqliyyat, rabitə və Yüksək Texnologiyalar Nazirliyinin hərbiləşdirilmiş mühafizə idarəsində kiçik leytenant rütbəsində işə başlayır. Müdiriyyət onun işgüzar və tələbkarlığını nəzərə alıb leytenant rütbəsi verir. Və nəhayət vətənin başının üstünü «qara buludlar» alanda işlədiyi Azərselin müdiriyyətinə cəbhəyə getmək istədyini bildirərək deyir ki, mən Aprel döyüşlərində də iştirak etmişəm, təcrubəm var, izin versəydiniz hərbi komissarlığa gedib ərizə yazardım. Onun qətiyyətini görən rəhbərlik buna etiraz etmədi.

2020-ci ilin sentyabr ayında Elnur artıq cəbhə bölgəsində idi. Manqa başçısı və minamyotçu kimi fəaliyyətə başlayır. Əvvəlcə Füzuli uğrunda döyüşlərə atılır. Daha sonra döyüşçü yoldaşları ilə birgə Zəngilan və Xocavənd rayonlarının azad olunmasında erməni quldurlarını ağır məğlubiyyətə uğratdılar. Ağır və qanlı (amansız) döyüşlərin biri Xocavəndin azad olunması uğrundaı döyüş oldu. Elnur Qarayev burada əsil qəhrəmanlıq göstərərək düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv edərək sıradan çıxarır. Lakin amansız ölüm ona ordumuzun tam qələbəsini görməyə imkan vermir. Noyabr ayının 2-də qəlpə yarasından qəhrəmancasına şəhid olur.

Qarayevlər ailəsində 2 oğlan bir qız dünyaya gəlmişdi. Elnur evin ortancılı idi. Qardaşı Qorxmaz yaşca ondan böyük olsa da, evlənməmişdi. Elnur onun razılığını alandan sonra 2019-cu ilin iyununda Sumqayıt şəhərində yaşayan Vüsalə xanımla ailə həyatı da qurmuşdu. Zəhra adında fidan balaları da var. Elnur müharibəyə gedərkən körpə qızcığazı bağrına basaraq öpüb Vüsaləyə demişdi ki, Zəhramızı sənə əmanət qoyub gedirəm və əgər şəhid olsam Və burada Vüsalə xanım kövrələrək ona sözünün dalını deməyə qoymur. Get sağ salamat gəl, yolunu gözləyirik»-deyir. Elnurun qardaşı Qorxmazın dediklərindən:

-Mən Elnurdan yaşca böyük olsam da,onu özümə böyük qardaş bilirdim. İkimiz də bir yerdə işləyirdik. Rütbəcə də məndən bir pillə yüksək idi. O, leytenant mən isə kiçik leytenantam. Çox çevik idi., idmanın bir çox növləri ilə məşğul olurdu.

Bacısı Aysel:-Qorxmaza nisbətən Elnur mənə daha yaxın idi. Nə sirrimiz olarsa bir-ibirmizə deyərdik. Orta məktəbi qurtarıb Humanitar Kollecə daxil olsam da, oxumadım. Mənim arzum ya polis, ya da qardaşlarım kimi hərbisi olmaqdır. Bunu Elnura da demişdim. Ailə üzvlərimizdən fərqli olaraq o buna etiraz etməmişdi.

Elnur Qarayev haqqında yazı hazırlayarkən işlədiyi idarədə də oldum. Foyenin görməli yerində onun böyüdülmüş şəklinə, aldığı fəxri fərmanlara baxıb döyüş yoluna nəzər saldım. Çiyin yoldaşları ilə həmsöhbət oldum.

Baş leytenant Pərvin Şahmurov-Elnurla 4 il bir yerdə işləmişik. Çox dostcanlı, mehriban zabit idi. Mən ona zabit yox, qardaş deyirdim. Yaşca ondan xeyli böyüyəm. İş yoldaşımdan savayı onu özümə kiçik qardaş bilirdim. Bu 4 ildə zərrə qədər də olsa ondan nəinki mən heç kim inciməmişdi. Onun ölümü kollektivimizə itkidir. Hər yadıma düşəndə özümü saxlaya bilmirəm, gözlərim dolur. Qəbri nurla dolsun!

Söhbət əsnasında Elnurun atası (o da mühafizəçidir) Qalib, anası Mahirə (kiçik tibb işçisi) Elnurla fəxr etdiklərini bildirdilər.

Gənc şəhid leytenant Elnur Qalib oğlu Qarayev ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə dövlətimiz tərəfindən «Vətən uğrunda», Xocavəndin azad olunmasına görə» medalları ilə təltif olunmuşdur. Qəbri «Şəhidlər Xiyabanındadır.

Allah bütün şəhidlərimizə min rəhmət eləsin!

**Musaxan HEYDƏRLİ**

# TƏCRÜBƏLİ PEDAQOQU YAXINDAN TANIYAQ



**Respublikamızin bütün bolgələrində oldugu kimi, Şirvan şəhərində də təhsil sisteminin məqsədlərindən biri də gənc nəslin hərtərəfli biliklərə malik olmaqla yanaşı, məlumatlı, eləcə də xalqa, millətə, vətənə məhəbbət və sədaqət ruhunda tərbiyə edilməsindən ibarətdir.**

Cəmiyyət üçün yetişdirilən hər bir şagird isə, onlar üçün yaradılmış şəraitdən səmərəli istifadə etməklə, əla qiymətlərlə oxumalı, bilik və bacarıqlarının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atmalıdırlar.

Biz bu gün fəxrlə deyə bilərik ki, Şirvanın ümumtəhsil məktəblərində ovladlarımızın təlim-tərbiyəsinə və tədrisinə xüsusi diqqət verilməkdədir. Burada müəllim əməyi əsas onəm daşıyır. Bir bagban kimi, yetişdirdiyi meyvələrinin bəhrəsini gorən müəllimlərimiz isə alqışa layiqdir. Biz bu gün, Şirvan şəhərindəki Sadıq Hüseynov adına I nomrəli məktəb-liseyin ibtidai sinif müəllimi, omrünün 40 ildən çoxunu məktəbdə dərs dediyi şagirdlər arasında keçirən, təcrübəli pedaqoq Mədinə Həbibi - İbadova ilə tanış olacagıq. Şagirdlərinə mayak olan Mədinə müəllim onların şəxsiyyət olaraq yetişməsi və hərtərəfli biliklərə yiyələnməsi üçün bütün potensiyalarından maksimum dərəcədə istifadə edir.

Mədinə Həbibi, əslən Təbrizdən olan - 1949-cu ildə köcərək Şirvanda özünə ev quran Həbibi Hüseyn Təbrizinin ailəsində 1960-çi il, 4 aprel tarixində dünyaya göz açıb

Hüseyn Həbibinin dörd ovladından ilki olan Mədinə 1967-1977-ci i llərdə Bayramı qəsəbəsindəki 3 nömrəli məktəbdə orta təhsil alıb. Məzun oldugu il də o, Əli Bayramlı Pedaqoji Məktəbinə daxil olub və 1979-cu ildə buranı bitirib. Mədinə müəllim ilk pedaqoji fəaliyyətə Saatlı rayon məktəbindən başlayıb.

Bir il ibtidai sinif müəllimi işlədikdən sonra ailə vəziyyəti ilə əlaqədar olaraq Şirvan şəhərinə köcub. Şirvan şəhərindəki 11 nömrəli məktəbdə 1981-1989-cu illərdə çalışıb. Mədinə müəllim 1990 cı ildən etibarən, pedaqoji fəaliyyətini Xüsusi İstedadlılarla - Şirvan şəhərindəki Sadıq Hüseynov adına I nomrəli məktəb- liseydə davam etdirir.

Mədinə müəllim ailə-övlad qaygıları cəkməklə yanaşı, artıq uzun illərdir ki, fasiləsiz olaraq pedaqoji fəaliyyətini eyni kollektivdə davam etdirməkdədir. Uzun illərdir ki, qüsursuz fəaliyyəti və keyfiyyətli tədrisi ilə, kollektivin eləcə də valideynlərin etimadını dogruldan Mədinə Həbibi - İbadova , həm də 1nömrəli məktəb - liseydə Metod birləşmənin sədri vəzifəsini, məsuliyyətlə icra edir

Dəfələrlə müəllimlərin təkmilləşdirmə kurslarında iştirak edən Mədinə müəllim, dərs keyfiyyətinini daim yüksəltməyə çalışır. Obyektivliyi, ciddiliyi və təbkarlıgı ilə fərqlənir. O, bir necə dəfə Azərbaycan Təhsilinin İnkişafında xidmətlərinə gorə fəxri fərman ilə təltif edilib. Yeni tədris metodu olan kurikulum üzrə təlim kursunu bitirən M.İbadova, 2017-çi tədris ilində Müəllimlərin Diaqnostik Qiymətləndirilməsində, 46 bal göstərici ilə. oncüllər sırasına qatılıb. Mədinə müəllim ixtisasca müəllim olan omür-gün dostu Mais İbadov ilə birlikdə dord ovlad tərbiyə etmişdir.

Qızları Elnurə ibtidai sinif müəllimi, Əminə isə ingilis dili müəllimidir

Oglanları Elnur İbadoun Şirvanın işıqlandırılmasında önəmli əməyi var.

Elçin İbadov isə Dəmir Yolu Stansiyasında çalışır.

Mədinə müəllimin yetişdirdiyi şagirdləri sırasında müəllim peşəsinə üstünlük verənlər daha çoxluq təşkil edir.

Kecmiş şagirdlərdən hüquqşünas, mühəndis, mühafizəçi, hərbçi olanlar da var. Aprel doyüşlərinin və Vətən müharibəsinin iştirakcısi Məhəmməd Abbasovun adını iftixar hissi ilə çəkən Mədinə müəllim bildirir ki, Azərbaycanın şanlı zəfər tarixində fərqlənən, qələbənin sevincini bizlərə yaşadanlardan biri olan M.Abbasov ata-ana, müəllim əməyinə həmişə dəyər verməyi bacaran bir ovladdır, o qisa məzuniyyət zamanı Mədinə müəllimi ziyarət edir.

Böyük inam hissi ilə deyə bilərik ki, Mədinə müəllim rəhbərlik etdiyi dordüncülər - Səbuhi Əhmədli, Tərlan Məmmədli, Rüqəyya Vəliyeva, Omər Qasımlı, Türkan İsmayılzadə, Rza Əliyev, Nuray Mahmudova, Təhminə Məmmədli və digərləri əla qiymətləri və xüsusi istedadları sayəsində Sadıq Hüseynov adına I nomrəli Məktəb-Liseyin və Mədinə müəllimin adlarını gələcəkdə daha da yüksəldəcəklər.

**HƏMİDƏ FAZİLQIZI,**
**AZƏRBAYCAN JURNALİSTLƏR BİRLİYİNİN üzvü**

## ETIBARSIZDIR

Şirvan şəhər sakini Mehdiyev Xalıq Mehdi oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

# Şirvan şəhərinin komandası "Nə? Harada? Nə zaman?" intellektual oyununun respublika kubokunun qalibi olub

**Şirvan şəhəri 1 nömrəli məktəb-liseyin "Moonlight" komandası Təhsil Nazirliyinin təşkilatçılığı və "Kapital Bank"ın dəstəyi ilə "Ağıllı şəhər-Bakı" layihəsi çərçivəsində VI-IX sinif şagirdləri arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə keçirilən onlayn respublika kubokunun qalibi olub. Bu münasibətlə 1 aprel 2021-ci il tarixində Şirvan Gənclər Evində qaliblərin mükafatlandırma mərasimi keçirilib. Tədbirdə Şəhər İcra Hakimiyyətinin, Təhsil Şöbəsinin, Gənclər və İdman İdarəsinin nümayəndələri iştirak edib.**

Şəhər Təhsil Şöbəsinin müdiri Rövşən Allahverdiyev bu cür intellektual oyunların əhəmiyyətindən söz açaraq bildirib ki, məhz Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə ilk 3 Dünya Çempionatı və Millətlər Kuboku Bakıda təşkil edilib. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclərin intellektual səviyyəsinin yüksəlməsinə şərait yaradılması, istedadlı gənclərin üzə çıxarılması, onların cəmiyyətə inteqrasiya olunması məqsədilə bilik yarışlarına diqqət və qayğı daha da artırılıb. Şirvan şəhərinin məktəbliləri də həmişə bu yarışlarda yüksək səviyyədə təmsil olunub və müxtəlif yerlər tutublar. Yarışın tarixində ilk dəfə region məktəbinin qalib gəlməsi sevindirici haldır və Şirvan şəhəri üçün böyük uğurdur. 450-dən çox komandanın iştirak etdiyi yarışın final mərhələsində 133 komanda vəsiqə qazanıb. Nəticələrə əsasən, Şirvan şəhəri 1 nömrəli məktəb-liseyin "Moonlight" komandası I, Bakı şəhəri 234 nömrəli tam orta məktəbin "İstiqlal" komandası II, İsmayıllı şəhəri 6 nömrəli tam orta məktəbin "Cavanşir yurdu" komandası isə III yerə layiq görülüb. Tədbirdə çıxış edən Şəhər İcra Hakimiyyətinin məsul işçiləri Aynur Fərzəliyeva, Samirə İsmayılova, Gənclər və İdman İdarəsinin rəisi Azər Quliyev, 1 nömrəli məktəb-liseyin direktoru Rəfiqə Atayeva Şirvan şəhərini intellektual oyunda yüksək səviyyədə təmsil etdiklərinə və qalib gəldiklərinə görə komanda üzvlərini təbrik edib və onlara təhsil pillələrində uğurlar arzulayıblar. Gənclərin bilik və bacarıqlarının, dünyagörüşünün inkişaf etdirilməsi sahəsində dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.



Sonda 1 nömrəli məktəb-liseyin "Moonlight" komandasının üzvlərinə kubok, diplom, medal və pul mükafatı təqdim olunub və qaliblərlə xatirə şəkili çəkilib.

# TARİX MÜƏLLİMİNİN DƏYƏRLİ VƏSAİTİ

**Şəhərimizdə fənnini ürəkdən sevən, daim yeniliyə can atan, biliyini şagirdlərindən əsirgəməyən tarix müəllimlərimiz çoxdur. Onlardan biri Əsədov Seyyub Əsəd oğludur. Kiçik haşiyəyə çıxaraq deyim ki, Seyyub Əsədov müəllim oğludur. Müəllim ocağından, necə deyərlər, su içib. Böyük Vətən müharibəsinin odlu-alovlu günlərini keçmiş Əsəd müəllim Hacıqabul rayonunun Meyniman kənd orta məktəbində böyük nüfuza malik müəllim idi. Şagirdlər, müəllimlər bu sakit təbiətli müəllimi sevər, ona xüsusi hörmətlə yanaşardılar. Təbii ki, bunları Əsəd müəllim asanlıqla qazanmamışdı. Zəhmətkeş müəllim hər mövzunu öz doğma balaları kimi sevdiyi oğlan və qızlara səbrlə, təmkinlə başa salırdı. Bunları deməkdə məqsədim var. Ot öz kökü üstə bitib, ifadəsi burada yerinə düşür. Seyyub müəllim ata yolunu, ona dərs demiş digər pedaqoqların yolunu şərəflə davam etdirir.**

S.Əsdəov hazırda Milli Qəhrəman Tahir Bağırov adına 11 nömrəli tam orta məktəbdə tarix müəllimidir. Düz 28 ildir bu kollektivin ləyaqətli üzvlərindəndir.

Müasirliyə, yeniliyə can atan Seyyub müəllim «Ən yaxşı müəllim» müsabiqəsinin ( 2015-ci il), Təhsildə inkişaf və innovasiyalar üzrə IV qrant müsabiqəsinin (2020) qalibidir.

1993-1996-cı illərdə Şirvan şəhər 14№-li məktəbdə, 1996-2003-cü illərdə Şirvan şəhər 11№-li məktəbdə müəllim, 2003-2004-cü illərdə Şirvan şəhər 11 nömrəli məktəbdə tərbiyə işləri üzrə direktor müavini, 2004-2005-ci illərdə həmin təhsil müəssisəsində direktor vəzifəsində çalışmışdır. Hazırda bu məktəbdə müəllim kimi fəaliyyət göstərən S.Əsədov məktəbdə tarix fənni üzrə fənn birləşməsinin rəhbəridir.




Seyyub müəllimin dərs dediyi şagirdləri arasında şəhər üzrə keçirilən olimpiada qalibləri və mükafatçıları hər il olur. Şagirdləri ali məktəblərə qəbul zamanı tarix fənni üzrə test imtahanlarından yüksək bal toplayırlar.

Seyyub müəllim daim öz üzərində çalışır. Müasir təlim metodlarının mənimsənilməsi və tətbiqi məqsədilə Təhsil Nazirilyi, eləcə də Azərbaycan Təhsil Şurası tərəfindən həyata keçirilən proqram və layihələrin iştirakçısı olmuşdur.

Seyyub müəllim 2003-cü ildə «Müasir dövrdə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi və təhsilin keyfiyyətcə yüksəldilməsinin aktual məqsədləri» mövzusunda keçirilən Respublika Pedaqoji Mühazirələrində «Təlim və tərbiyə metodları arasında qarşılıqlı əlaqə» mövzusu ilə iştirak etmiş və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Diplomuna, Şirvan şəhər İcra Hakimiyyətinin mükafatına layiq görülmüşdür.

Əlbəttə Seyyub müəllimin belə uğurlarından çox danışmaq olar. Buna lüzum görmürük. Çünki Seyyub müəllimi yaxından tanıyanlar çoxdur. Hətta o qabaqcıl iş təcrübəsini Rusiya və digər MDB ölkələrinin müəllimləri ilə paylaşır. Dövrü mətbuatda dəyərli məqalələrə çıxışlar edir.

Bu günlərdə Seyyub müəllim şad xəbərlə bizləri sevindirdi. Dedi ki, Təhsil Nazirliyinin 2020-ci il üzrə dövlət ümumi təhsil müəssisələri və təşkilatı -hüquqi formasından asılı olmayaraq ümumi təhsil müəssisələrində çalışan pedaqoji işçilər üçün keçirdiyi «Təhsildə inkişaf və innovasiyalar» üzrə IV qrant müsabiqəsinin qalibi olaraq ümumi təhsildə metodiki bazanın gücləndirilməsi və metodik xidmət sisteminin təkmilləşdirilməsi istiqaməti üzrə «V-XI siniflərdə tarix fənninin tədrisi metodikası» adlı vəsaitim işıq üzü görmüşdü. İnanıram bu vəsait şagirdlərin və həmkarlarımın stolüstü kitabına çevriləcək.

Söhbətimizin sonunda S. Əsədov vəsaitin ərsəyə gəlməsində öncə ölkə Prezidenti İlham Əliyevə, Təhsil Nazirliyinə, IV qrant müsabiqəsinin komandasına, ona köməklik göstərən tarixçi həmkarlarına təşəkkürünü bildirdi.

Biz də Seyyub müəllimi təbrik edir, ona yeni-yeni uğurlar arzulayırıq.

**F.RƏHİMOV**

# "31 Mart Qan yaddaşımızdır!" mövzusunda inşa-yazı müsabiqəsi keçirildi

**12-30 mart 2021-ci il tarixlərində Şirvan Şəhər İcra Hakimiyyəti, şəhər Təhsil Şöbəsi və şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş ümumitəhsil məktəblərində təhsil alan V-IX sinif şagirdləri arasında "31 Mart Qan yaddaşımızdır!" mövzusunda inşa-yazı müsabiqəsi keçirildi.**













Şagirdlər mövzuya uyğun yazdıqları inşa-yazıları şəhər Təhsil Şöbəsinin e-mail ünvanına və facebook səhifəsinin mesaj bölməsinə göndərməklə müsabiqədə iştirak ediblər. Təşkilatçılar tərəfindən yazı müsabiqəsini keçirməkdə məqsəd xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixini öyrənmək və şagirdlərin Azərbaycan tarixi haqqında daha geniş biliklərə sahib olmalarına köməklik göstərməkdir.

Müsabiqənin qalibləri münsiflər heyətinin seçimi əsasında müəyyən olunmuş və yekun qərarla 9 nömrəli tam orta məktəbin şagirdi Səbinə Abbaszadə, 5 nömrəli ümumi orta məktəbin şagirdi Fidan Hüseynzadə, 2 nömrəli tam orta məktəbin şagirdi Nəzrin Şahbazlı və 1 nömrəli tam orta məktəbin şagirdi Selcan Quliyeva I-IV yerlərə layiq görülüblər. Müsabiqənin qalibləri diplom və hədiyyələrlə təltif olunublar.

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Telefonlarımız: Baş redaktor: 6-35-60 Redaktor müavini: 6-31-35 E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız: Şirvan şəhəri, İ.İ.Qayıbov küçəsi 16, Şəhadətnamə №161 İndeks: 66858 Tiraj: 650